Azərbaycan Respublikası ədliyyə nazirinin 29 dekabr 2016-cı il tarixli 24-T nömrəli əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnformasiya-kommunikasiya texnologiyaları idarəsi haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnformasiya-kommunikasiya İdarəsi (bundan sonra - İdarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin struktur qurumudur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlar, habelə məhkəmələr və digər dövlət orqanları ilə əlaqəli həyata keçirir.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsaitlər, beynəlxalq maliyyə və digər qurumlar tərəfindən verilən kreditlər, qrantlar, ianələr və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Nazirliyin sisteminə daxil olan qurumların, birinci və apellyasiya instansiyası məhkəmələrinin (bundan sonra – məhkəmələr) informasiya texnologiyaları üzrə məsələlərini həll edir;

2.1.2. Nazirliyin sisteminə daxil olan qurumlarda və məhkəmələrdə informasiya sistemlərinin əlaqəli fəaliyyətini, texniki dəstəklənməsini, təhlükəsizliyini və idarə edilməsini təşkil edir;

2.1.3. ədliyyə və məhkəmə sahəsində informasiya texnologiyalarının inkişafını və elektron xidmətlərin yüksək səviyyədə təmin edilməsini təşkil edir;

2.1.4. Nazirliyin əsas və ehtiyat məlumat mərkəzlərinin işini təşkil edir;

2.1.5. Nazirliyin fəaliyyət istiqamətləri üzrə informasiya texnologiyaları sahəsində strateji planlaşdırma işini həyata keçirir;

2.1.6. informasiya texnologiyaları sahəsində fəaliyyətini Məhkəmə-Hüquq Şurası, Konstitusiya Məhkəməsi və Ali Məhkəmənin aidiyyəti qurumları ilə əlaqələndirir;

2.1.7. informasiya texnologiyaları sahəsində fəaliyyətini digər dövlət orqanları ilə əlaqələndirir, həmin orqanların informasiya resursları və sistemləri ilə inteqrasiyanı və məlumat mübadiləsini həyata keçirir;

2.1.8. informasiya texnologiyaları ilə bağlı, o cümlədən elektron xidmətlər və elektron sistemlər üzrə təlimlərin təşkili işində iştirak edir;

2.1.9. Nazirliyin sisteminə daxil olan qurumların və məhkəmələrin informasiya təhlükəsizliyi siyasətini, o cümlədən bu sahədə müvafiq standart, təlimat və prosedurlarının hazırlanmasını təmin edir, onların tətbiq edilməsini və yenilənməsini həyata keçirir və bu işə ümumi nəzarət edir;

2.1.10. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.1. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Nazirliyin sisteminə daxil olan qurumlarda və məhkəmələrdə informasiya sistemlərinin yaradılması, idarə edilməsi və onların mütəmadi yenilənməsini təmin etmək;

3.1.2. İnformasiya sistemlərinin fəaliyyətinin təmin edilməsi ilə əlaqədar mövcud qanunvericiliyi təhlil edərək müvafiq təkliflər hazırlamaq;

3.1.3. ədliyyə və məhkəmə orqanlarına qulluğa qəbul edilən namizədlər və işçilər üçün informasiya texnologiyaları və təhlükəsizliyi, eləcə də mövcud elektron sistemlər üzrə təlimlərin təşkili işində iştirak etmək;

3.1.4. Nazirliyin fəaliyyət istiqamətləri üzrə İKT sahəsində ədliyyə orqanlarının və məhkəmələrin strateji inkişaf planlarını hazırlamaq və onların həyata keçirilməsi üçün

tədbirlər görmək, bu sahədə işi əlaqələndirmək, ümumiləşdirmək, planların icrasına nəzarəti həyata keçirmək;

3.1.5. İnformasiya texnologiyaları sahəsində ədliyyə və məhkəmə fəaliyyətinin məhsuldarlığının qiymətləndirilməsini təmin etmək üçün göstəriciləri müəyyən etmək;

3.1.6. məhkəmələrin və hakimlərin fəaliyyətinə dair elektron statistik hesabat məlumatlarını ümumiləşdirmək, təhlil etmək, aidiyyəti üzrə təqdim edilməsi üçün hazırlamaq, həmçinin elektron statistik hesabatları dərc etmək;

3.1.7. informasiya texnologiyaları məsələlərinə dair Nazirliyin sisteminə daxil olan qurumlara və müvafiq məhkəmələrə daxil olan müraciətlərə baxılmasını, məktub və sorğulara cavabların hazırlanmasını təmin etmək;

3.1.8. Nazirliyin sisteminə daxil olan qurumlarda və məhkəmələrdə müasir tələblərə və beynəlxalq standartlara cavab verən informasiya texnologiyaları infrastrukturunu yaratmaq və idarə olunmasını təşkil etmək;

3.1.9. Nazirliyin bütün struktur qurumlarında, habelə məhkəmələrdə informasiya texnologiyaları infrastrukturunun formalaşdırılması məqsədi ilə tələb olunan maliyyə vəsaitlərinə dair ehtiyacları təhlil edərək ədliyyə nazirinə təqdim etmək.

## 4. İdarənin hüquqları

4.1. İdarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. öz səlahiyyətləri çərçivəsində Nazirliyin sisteminə daxil olan qurumlar və məhkəmələrə yazılı və ya şifahi müraciətlər etmək, sorğular vermək və onlardan zəruri məlumatları, arayışları və sənədləri əldə etmək;

4.1.2. İdarənin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə rəylər vermək, təhlillər aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.3. müstəqil yerli və beynəlxalq ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.4. müvafiq istiqamətlərdə keçirilən konfranslarda, seminarlarda, forumlarda, təlimlərdə və digər tədbirlərdə iştirak etmək, həmçinin öz səlahiyyətləri çərçivəsində dövlət orqanlarında və digər təşkilatlarda Nazirliyi təmsil etmək;

4.1.5. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.6. informasiya texnologiyaları sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədi ilə beynəlxalq qurumlarla əlaqələr yaratmaq;

4.1.7. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarə birbaşa ədliyyə nazirinə tabedir. İdarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi

üçün şəxsən məsuliyyət daşıyır.

5.2. İdarənin strukturunu təşkil edən şöbələrə (bölmə, qrup) Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə rəisləri (bölmə və qrup rəhbərləri) rəhbərlik edirlər.

5.3. İdarənin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və İdarənin iş planları əsasında həyata keçirilir.

5.4. İdarədə işin təşkili və vəziyyəti, iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar məsələlər mütəmadi olaraq İdarənin rəisinin yanında keçirilən iclaslarda müzakirə edilir.

5.5. İdarənin rəisi:

5.5.1. İdarənin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.5.2. vəzifə təlimatlarına müvafiq olaraq İdarənin strukturuna daxil olan şöbələrin (bölmə, qrup) işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

5.5.3. İdarənin strukturuna daxil olan şöbələrin (bölmə, qrup) fəaliyyətinə nəzarət edir və onların işini əlaqələndirir;

5.5.4. İdarənin işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.5.5. İdarənin cari və perspektiv iş planlarını təsdiq edir, iş planlarının vaxtında və keyfiyyətli icra olunmasına nəzarət edir, həmçinin görülən işlərlə bağlı müvafiq hesabatları nazirliyin rəhbərliyinə təqdim edir;

5.5.6. icrası məcburi olan sərəncamlar verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.5.7. İdarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.5.8. Nazirlik üzrə informasiya texnologiyalarının idarə edilməsi və təminatı məsələləri ilə əlaqədar nazirliyin aidiyyəti struktur qurumlarının rəhbərləri və müvafiq məhkəmə sədrləri ilə müzakirələr aparır, bu sahənin maliyyələşdirilməsinə dair təkliflər verir;

5.5.9. İdarənin fəaliyyəti ilə əlaqədar Nazirliyin kollegiya qərarlarının, nazirlik üzrə əmr və sərəncamların, habelə Nazirliyin iş planında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.5.10. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür və bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.5.11. xüsusi əhəmiyyətli və mürəkkəb sənədlərin icrasını bir neçə işçiyə tapşırır və ya onları bir işçinin icraatından digər işçinin icraatına verir;

5.5.12. İdarəyə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarəti həyata keçirir;

5.5.13. İdarədə kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə riayət olunmasını təmin edir;

5.5.14. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

5.6. İdarənin strukturuna daxil olan şöbənin rəisi (bölmə və qrupun rəhbəri):

5.6.1. şöbənin (bölmə, qrup) işini təşkil edir və fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.6.2. şöbədə (bölmə, qrup) işçilərin fəaliyyətini istiqamətləndirir, ona həvalə edilən vəzifələrin yerinə yetirilməsini təmin edir;

5.6.3. şöbənin (bölmə, qrup) fəaliyyətini İdarənin digər struktur qurumları ilə əlaqələndirir;

5.6.4. şöbənin (bölmə, qrup) müvafiq hesabatlarını İdarənin rəisinə təqdim edir;

5.6.5. şöbəyə (bölmə, qrup) yeni təyin olunmuş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

5.6.6. şöbənin (bölmə, qrup) fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür və bu barədə İdarənin rəisinə təkliflər verir;

5.6.7. səlahiyyətləri daxilində digər məsələləri həll edir;

5.6.8. peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.6.9. xidməti fəaliyyətlə bağlı Nazirliyin və İdarənin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

5.7. İdarənin strukturu və ştat cədvəli ədliyyə naziri tərəfindən təsdiq olunur.